Sizin heç biriniz kiçik su başına çıxarkən cinsi orqanını sağ əli ilə tutmasın, ayaqyolunda sağ əli ilə təmizlənməsin və qaba üfürməsin

Əbu Qatədədən (Allah ondan razı olsun) Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Sizin heç biriniz kiçik su başına çıxarkən cinsi orqanını sağ əli ilə tutmasın, ayaqyolunda sağ əli ilə təmizlənməsin və qaba üfürməsin".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəzi ədəbləri açıqlamışdır: O, kişinin su başına çıxarkən cinsiyyət üzvünü sağ əli ilə tutmasını və sağ əli ilə cinsiyyət üzvü və ya arxa nahiyədən nəcasəti təmizləməsini qadağan etmişdir. Çünki sağ əl yaxşı əməllər etmək üçündür. Həmçinin o, insanın içdiyi qaba üfürməsini də qadağan etmişdir.

https://sunnah.global/hadeeth/az/show/3079

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee